www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-08 (1791) 30 aprel 2024-cü il




## ATUREK 12 - rezident və magistrantların elmi zirvə toplantısı keçirilib

**Rektor, professor Gəray Gəraybəyli: Bu gün işinin peşəkarı kimi tanınan məzun rezidentlərimiz bir çox sahələrdə uğurla fəaliyyət göstərir**

səh. 2

## Akademik Zərifə Əliyevanın işıqlı xatirəsi bu gün də ürəklərdədir

səh. 5

## Əməkdaşlarımız prezident seçkilərində aktiv iştiraka görə təltif olunub

səh. 4

## Tələbə Həmkarlar İttifaqı Komitəsinin hesabat-seçki yığıncağı keçirilib

səh. 4



## Xarici tələbələrin sayının çox olması universitetin beynəlxalq nüfuzunun göstəricisidir

Azərbaycan Tibb Universiteti Böyük Elmi Şurasının növbəti iclası keçirilib

səh. 5

## Şizofreniyanın müalicəsində yeni imkanlar müzakirə olunub

*Professor Gəray Gəraybəyli psixiatriyanın ən aktual probleminə dair fikirlərini bölüşüb*

səh. 3

## Şagirdlər ATU-nun rektoru ilə görüşüb

*Gələcəyin tələbələrinə universitetlə bağlı ətraflı məlumat verilib*

səh. 4




## Tələbəmiz dünya çempionatında üç medal qazanıb

Rektor, professor Gəray Gəraybəyli böyük uğura imza atmış Vüsal Seyidovu qəbul edib

səh. 3

# ATUREK 12 - rezident və magistrantların elmi zirvə toplantısı keçirilib

## Rektor, professor Gəray Gəraybəyli: Bu gün işinin peşəkarı kimi tanınan məzun rezidentlərimiz bir çox sahələrdə uğurla fəaliyyət göstərir



**Aprelin 23-də Azərbaycan Tibb Universitetində Ümummilli Lider Heydər Əliyevin 101 illiyinə həsr olunmuş ATUREK 12 - rezidentlərin və magistrantların elmi-təcrübi konfransı keçirilib. Tədbir iştirakçıları Ulu Öndərin universitetin foyesindəki büstünün önünə gül dəstələri qoyub, xatirəsini ehtiramla yad ediblər.**

Dövlət Himnimiz səsləndirildikdən və Vətən şəhidlərinin xatirəsi ehtiramla anıldıqdan sonra konfrans öz işinə başlayıb.

Əvvəlcə ATUREK-in 11-ci konfransının bəzi fraqmentlərini özündə əks etdirən video-çarx nümayiş olunub.

ATU-nun rezidentləri Cəlal Həsənov, Nailə Qasımova və Küşvər Seyidovanın moderatorluğu ilə baş tutan konfransın rəsmi açılış tədbirində universitetin rektoru, professor Gəray Gəraybəyli giriş nitqi ilə çıxış edib. O, ənənəvi olaraq hər il keçirilən ATUREK-in 12-ci konfransının da xalqımızın Ümummilli Liderinin xatirəsinə həsr olunduğunu vurğulayıb: “Öncə hər birinizi universitetin bu möhtəşəm zalında salamlamaqdan qürur duyuram. Ulu Öndər Heydər Əliyev deyirdi ki, hər bir Azərbaycan gənci ilk növbədə müstəqil Azərbaycanın bu günü və gələcəyi haqqında düşünməlidir. Azərbaycan gəncləri bu diqqət və qayğını yüksək qiymətləndirməklə yanaşı, öz məsuliyyətlərini dərk edir və strateji məsələlərin uğurla həyata keçirilməsinə, respublikamızın dinamik inkişaf edən qüdrətli dövlətə çevrilməsi prosesinə öz töhfələrini verirlər. Gənclik millətin gələcəyidir, inkişafın təməl daşıdır. Millətin mövcudluğu üçün sağlam gənclik vacib şərtlərdən biridir. Hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların hazırlanmasından, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır”.










ATU-nun ölkəmizdə həkim kadrların hazırlanmasında xüsusi rol oynadığını söyləyən rektor qeyd edib ki, səhiyyənin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə paralel tibb xidmətinin səviyyəsi də yüksəlməkdədir: “Çünki ən önəmlisi kadrların hazırlanmasıdır. Nə qədər möhtəşəm klinikalar açılsa və müasir avadanlıqlarla təchiz olunsa da, əgər yeni texnologiyanı, müalicə-diaqnostika məsələlərini mükəmməl bilən kadrlar yoxdursa, o klinikalar gözəl bir muzeyə bənzəyəcək”.

Ulu Öndərin gənclər siyasətini cənab Prezident İlham Əliyevin layiqincə davam etdirdiyini diqqətə çatdıran rektor, bu siyasətin tibb təhsili üçün şərait və imkanlar yaratması ilə bərabər, köklü islahatların aparılması ilə də özünü göstərdiyini bildirib: “Bu islahatlardan biri də tibb təhsilimizdə rezidentura pilləsinin yaradılması idi. Rezidentura və magistratura təhsilinin səviyyəsinin yüksəldilməsi, yüksək ixtisaslı kadrların hazırlanması da prioritet məsələlərdəndir. Hazırda yerli və əcnəbi rezidentlərin təhsil aldığı universitetimizdə bu şərəfli və çətin missiyanı layiqincə yerinə yetirməyə, tam hazırlıqlı ixtisaslaşmış həkimlərin yetişməsi üçün bütün imkanlardan istifadə etməyə çalışırıq. Səhiyyə Nazirliyinin dəstəyi ilə rezidentlərimiz ölkəmizin aparıcı klinikalarında rotasiyalarda olur və təcrübə qazanırlar. Həmçinin universitetimizin bağladığı qarşılıqlı müqavilələr çərçivəsində rezidentlərimiz hər il xarici ölkələrin klinikalarında da rotasiya keçirlər. Danılmaz həqiqətdir ki, bu gün ölkəmizdə artıq işinin peşəkarları kimi tanınan məzun rezidentlərimiz bir çox sahələrdə uğurla fəaliyyət göstərirlər”.

Müxtəlif panel və sessiya iclaslarında 130-a yaxın elmi məruzənin dinləniləcəyini və ayrıca cərrahiyyə kursunun keçiriləcəyini, müzakirə edilən məsələlərin bütün iştirakçılar, xüsusilə də gənc alimlər və rezidentlərimiz üçün faydalı olacağına əminliyini bildirən rektor konfransın işinə uğurlar arzulayıb.






Konfrans iştirakçılarını Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev və öz adından salamlayan nazir müavini Nadir Zeynalov bu günkü konfransın birbaşa tibb təhsili ilə bağlı olduğunu bildirib: “Bir çox ölkələrdə olduğu kimi, bizim ölkəmizdə də ali tibb təhsili 2 pillədən ibarətdir: baza tibb təhsili və ixtisaslaşma. İxtisaslaşmaya aid olan təhsil 2011-ci ilə qədər internatura formasında həyata keçirilirdi. İnternatura rezidentura sistemi ilə əvəz olundu və bununla da tibb təhsilinə yanaşma, o cümlədən tibb təhsilinin fəlsəfəsi də dəyişdi. Bu dəyişiklik tibb təhsilinə olan müasir tələblərlə bağlıdır. Müasir tələblərə görə, həkimin təkcə öz işinin peşəkarı olması kifayət deyil. XXI əsrin həkimi eyni zamanda bir müəllim olaraq öz bildiklərini ətrafındakı həkimlərə, xüsusilə gənc həkimlərə, rezidentlərə və tələbələrə öyrətməlidir. Bundan əlavə, mütləq elmlə maraqlanmalı, elmi tədqiqatlar aparmalıdır. Rezidentura hazırlığı keçən, eyni zamanda magistraturada oxuyan tələbələrimiz məhz bu 3 istiqamətdə püxtələşir”.

ATUREK konfransını ölkəmizdə rezidentlərin elmi işlərinin təqdimatının zirvəsi kimi səciyyələndirən nazir müavini tam əminliklə bildirib ki, bu konfransda iştirak edən rezidentlər və magistrantlar gələcək fəaliyyətləri üçün zəngin təcrübə toplayacaqlar.

Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Samiq Sadıxov isə çıxışında 2022-ci ildə cənab Prezident tərəfindən Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəlik institutu yaradıldıqdan sonra səhiyyə sistemində köklü islahatların aparıldığını bildirib.

Rezidenturada təhsilini bitirən 20-ə yaxın həkimin Naxçıvan Muxtar Respublikasında məcburi təyinatla işə başladığını və onlar üçün əlverişli şərait yaradıldığını söyləyən S.Sadıxov onu da vurğulayıb ki, Azərbaycan Respublikasının səhiyyə nazirinin əmri ilə Naxçıvan MR 10 tibb müəssisəsi bu ildən klinik tibbi baza siyahısına daxil edilib və növbəti ildə 10 mərkəz rezidentura qəbulunu həyata keçirəcək. Naxçıvan MR Səhiyyə Nazirliyinin ATU ilə sıx əməkdaşlığından söz açan natiq, Türkiyənin bir neçə aparıcı universiteti ilə də qarşılıqlı əməkdaşlıq memorandumunun imzalandığını xatırladıb. Çıxışının sonunda ATU-nun geniş tərkibli konfranslarından birinin Naxçıvanda keçirilməsini təklif edib.

İ.M.Seçenov adına Birinci Moskva Tibb Universitetinin Bakı filialının rektoru, professor Əziz Əliyev də öz çıxışında bu günkü konfransın gələcək həkimlərimizin həyatında əhəmiyyətli rol oynayacağını deyib. Xəstələrin protokola uyğun müalicə edilməsinin vacibliyini önə çəkərək xatırladıb ki, bəzi kuratorların “mən xəstəni öz təcrübəmə əsasən müalicə edirəm, protokola əməl etmirəm” deməsi yanlışdır. Onun sözlərinə görə, bütün protokollar elmi tədqiqatlara əsasən yazılır. Seçenov adına universitetin ATU ilə six əməkdaşlıq etdiyini deyən professor Ə.Əliyev yüksək ixtisaslı tibb mütəxəssislərinin yetişdirilməsi istiqamətində mühüm işlər görüldüyünü diqqətə çatdırıb.

Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru, professor Nazim Qasımov bu cür tədbirlərin rezidentlərin həyatındakı rolundan danışaraq qeyd edib ki, Ulu Öndər tibb təhsilinə çox böyük önəm verirdi və onun layiqli davamçısı möhtərəm prezidentimiz İlham Əliyev də Azərbaycan səhiyyəsinin inkişafı üçün çox mühüm qərarlara imza atıb. Bu gün Azərbaycan səhiyyəsində ən müasir müalicə üsullarının tətbiq olunduğunu deyən N.Qasımov bildirib ki, belə elmi-təcrübi konfranslar rezidentlərin elmi potensialının üzə çıxmasına şərait yaradır və elmi müzakirələr aparmaq bacarıqlarını inkişaf etdirir: “Bizim gənc rezidentlər artıq böyük tibb müəssisələrində rəhbər vəzifələrdə çalışır, onları hətta beynəlxalq arenada tanıyırlar. Bu böyük nailiyyətdir və rezidenturanın yeni fəlsəfəsinin nəticəsidir”.

AMEA-nın müxbir üzvü, ATU-nun I Cərrahi xəstəliklər kafedrasının müdiri, professor Nuru Bayramov çıxışında ATUREK-in ilk konfranslarına diqqət çəkərək qısa müddətdə keçilən inkişaf yolundan söz açıb. O, ATUREK-in təkcə respublika səviyyəsində deyil, yaxın gələcəkdə beynəlxalq səviyyədə də tanınacağına əminliyini ifadə edərək rezidentlərə öz tövsiyələrini verib.

Hazırda ölkəmizin qabaqcıl tibb müəssisələrində uğurla çalışan gənc mütəxəssislərimiz – həkim-pediatr Həmidə Həmidli, həkim-radioloq Xəyalə İsmayılzadə, ürək-damar cərrahı Beyrək Abbaszadə və universitetimizdə klinik psixoloq ixtisası üzrə magistr dərəcəsi almış Əminə Əliyeva da çıxış edərək öz fikirlərini bölüşüblər.

ATU-nun Rezidentura və magistratura şöbəsinin müdiri, professor Məlahət Sultanova bu gün bu zalda bir gənclik coşqusunun yaşandığını söyləyib: “Bu zalda əyləşən gənclər ölkəmizin sabaha açılan ümidləridir. Bəzən xəstə məmnuniyyətinin ən kiçik zərrəsindən sevinclə dolub-daşan, bəzən üzləşdiyi çətinliklə bağlı sönmək istəyib, yenidən parlayan ümidləri. Hər il aprel-may aylarında keçirilən, ildən-ilə forması və məzmunu ilə zənginləşən, Ümummilli Liderimizin adı ilə bağlı olan bu konfransda ölkəmizin bütün rezidentləri və magistrantları öz elmi-praktik fəaliyyətini nümayiş etdirirlər”.

Rezidentlərin və magistrantların onlara göstərilən etimadı doğruldacaqlarına inandığını söyləyən şöbə müdiri, konfrans iştirakçılarının nəzərinə çatdırıb ki, hazırda universitetimizdə 54 rezidentura və 9 magistratura ixtisası üzrə 70 nəfəri əcnəbi olmaqla 700 nəfər rezidentura pilləsində, 4 nəfəri əcnəbi olmaqla 119 nəfər magistratura pilləsində təhsil alır.

Azərbaycanın Əməkdar artisti, ustad tarzən Şəhriyar İmanovun ifasında səslənən musiqi nümunələrinin sədaları altında yekunlaşan rəsmi açılış mərasimindən sonra konfransın elmi hissəsi öz işini 9 panel üzrə davam etdirib. Konfransa 200-ə yaxın tezis təqdim olunub, ümumilikdə 127 məruzə dinlənilib. Konfransın sonunda məruzələr münsiflər tərəfindən dəyərləndirilib və qalib rezidentlər mükafatlandırılıb.

**Arif MƏMMƏDLİ**

**Səhiyyə Nazirliyinin dəstəyi ilə aprelin 25-27-də Bakıda XX Beynəlxalq Avrasiya Cərrahlar və Qastroenteroloqlar Konqresi, həmçinin XX Beynəlxalq Hepatoqastroenterologiya Konqresi təşkil olunub.**





# Bakıda beynəlxalq konqreslər keçirilib

## Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli tədbirdə çıxış edib

Beynəlxalq tədbir nazirliyin akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi, Milli Onkologiya Mərkəzi və Azərbaycan Tibb Universitetinin, həmçinin Azərbaycan Cərrah və Qastroenteroloqlar İctimai Birliyinin, Avrasiya Qastroenteroloqlar Assosiasiyasının, Türkiyə Respublikasının Hepato Bilio Pankreatologiya (HeBİPA) və Türkiyə Qaraciyər Araşdırmaları assosiasiyalarının (TASL) birgə təşkilatçılığı ilə keçirilib.

Konqresdə dövlət qurumlarının rəhbər şəxsləri, millət vəkilləri, ali təhsil və tibb müəssisələrinin nümayəndələri, tanınmış elm xadimləri ilə yanaşı, 31 ölkədən (Türkiyə, Rusiya, ABŞ, Böyük Britaniya, Yaponiya, Birləşmiş Ərəb Əmirlikləri, Misir, Pakistan, Niderland, İspaniya və s.) ixtisaslaşmış elm və tibb müəssisələrinin, eləcə də peşəkar cəmiyyətlərin rəhbərləri və nümayəndələri iştirak ediblər.

Açılış mərasimində çıxış edən səhiyyə nazirinin müavini Nadir Zeynalov tədbir iştirakçılarını səhiyyə naziri Teymur Musayevin adından salamlayıb və beynəlxalq konqresin Azərbaycanda 8-ci dəfə təşkil olunmasının vacibliyini qeyd edib. Onun sözlərinə görə, üç gün davam edəcək beynəlxalq tədbirdə dünyanın bir çox ölkələrinin aparıcı mütəxəssisləri tərəfindən qastroentrologiya və cərrahiyyənin müxtəlif sahələrini əks etdirən, müasir problemləri əhatə edən mühazirələrin geniş auditoriyaya çatdırılması nəzərdə tutulur. "Əminəm ki, beynəlxalq konqres qastroenterologiya və hepatoqastroenterologiya sahəsində eksperimental və klinik araşdırmalarda ən son nailiyyətlərlə tanış olmaq imkanı yaradacaq, eyni zamanda beynəlxalq elmi əməkdaşlığının möhkəmlənməsinə öz töhfəsini verəcək", - deyə nazir müavini fikrini tamamlayıb.

Öz çıxışlarında Milli Məclisin Səhiyyə komitəsinin üzvü, Heydər Əliyev Fondunun Beynəlxalq əlaqələr departamentinin rəhbəri Soltan Məmmədov, Beynəlxalq konqresin sədri, professor Rauf Ağayev qurumun yaranma tarixindən bəhs edərək, beynəlxalq tədbirin 1997-ci ildə Bakıda ilk dəfə məhz Ümummilli Lider Heydər Əliyevin dəstəyi ilə keçirilməsini vurğulayıblar.

Açılış mərasimində çıxış edən Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli, HEBİPA-nın sədri Halə Gökcan, Birləşmiş Avropa Qastroenteroloqlarının sədri Matias Lör, Avropa Qaraciyər Araşdırma Assosiasiyasının baş katibi Aleksandr Kraq, Ankara Universiteti Tibb fakültəsinin dekanı Zəhra Aycan, Hacettepe Universiteti Tibb fakültəsinin dekanı Deniz Demiryürek və digər xarici qonaqlar geniş coğrafi areala malik olan beynəlxalq konqresin növbəti dəfə Azərbaycanda keçirilməsindən məmnunluqlarını bildirərək, alim və həkimlərimizin dünya tibb elminə verdikləri töhfələrini yüksək qiymətləndiriblər.

Üç gün davam edən konqresə 400-dən çox yerli və xarici mütəxəssis qatılıb.

# Şizofreniyanın müalicəsində yeni imkanlar müzakirə olunub

## Professor Gəray Gəraybəyli psixiatriyanın ən aktual probleminə dair fikirlərini bölüşüb



**Azərbaycan Tibb Universitetinin Psixiatriya kafedrası və Gedeon Richter şirkətinin təşkilatçılığı ilə Fairmont oteldə "Kariprazin: şizofreniyanın müalicəsi üçün unikal imkanlar" mövzusunda elmi-praktik konfrans keçirilib.**

Açılış nitqi ilə çıxış edən ATU-nun rektoru, Psixiatriya kafedrasının müdiri, professor Gəray Gəraybəyli konfransın mövzusunun kifayət qədər aktual olduğunu bildirib. Şizofreniyanın xroniki gedişatı ilə əlaqədar əmək qabiliyyətinin itirilməsi, etiologiya və patogenezinin dəqiq öyrənilməməsi, bu səbəbdən konkret müalicəsinin olmaması onu psixiatriyanın ən aktual probleminə çevirdiyini qeyd edib: "Psixiatriya sahəsində stasionar müalicə alan pasiyentlərin əksəriyyəti məhz bu xəstəlikdən əziyyət çəkir. Bu gün xəstəliyin müalicəsində müxtəlif preparatlardan istifadə olunsa da, mütəmadi olaraq yeni dərmanlar hazırlanır. Bu konfransda yeni və effektivliyi sübut edilmiş preparatdan bəhs olunacaq. Həmçinin şizofreniyanın neqativ simptomlarına ənənəvi və müasir baxışlar araşdırılacaq, bu sahədə son elmi tədqiqatların nəticələri elan olunacaq. Eləcə də neqativ pozuntuların müalicəsi imkanlarının nəzərdən keçirilməsinə xüsusi diqqət yetiriləcək".

Rektor əlavə edib ki, şizofreniyanın müalicəsində tətbiq edilən yeniliklərə həsr olunmuş mühazirələr bütün tibb ictimaiyyəti üçün önəm daşıyır.

Sonra V.P.Serbski adına Milli Tibbi Tədqiqat Psixiatriya və Narkologiya Mərkəzinin filialı olan Moskva Elmi-Tədqiqat Psixiatriya İnstitutunun Psixi xəstəliklərin müalicəsi şöbəsinin müdiri, Rusiya Tibb Akademiyasının Davamlı Peşəkar Təhsil Psixiatriya kafedrasının müdiri, Rusiya Federasiyasının əməkdar elm xadimi, professor Sergey Mosolov "Şizofreniyanın neqativ simptomlarının diaqnostikası və müalicəsi" mövzusunda mühazirə ilə çıxış edib. O, şizofreniyanın neqativ simptomlarının əksər hallarda bu xəstəliyin neqativ sosial nəticələrini müəyyən etdiyini bildirib. Eyni zamanda, son onilliklər ərzində bu əlamətlərin diaqnostik dəyərləndirilməsi və bu məsələyə yanaşmanın da əhəmiyyətli şəkildə dəyişdiyini vurğulayıb. Mühazirədə Rusiya Psixiatrlar Cəmiyyətinin keçirdiyi sorğuların nəticələrinə, rusiyalı mütəxəssislərin təcrübəsinə də istinad olunub. Qeyd olunub ki, şizofreniya xəstələrinin yarısından çoxunda ən azı bir neqativ simptom müşahidə edilir.

Məruzədən sonra professor S.Mosolov tədbir iştirakçılarının suallarını cavablandırıb.

# Türkiyə universitetinin rəhbər şəxsləri ATU-nun qonağı olub

**Türkiyənin Kahramanmaraş Sütcü İmam Universitetinin rəhbər şəxsləri Azərbaycan Tibb Universitetinin qonağı olub.**



Universitetin rektoru, professor Alptekin Yasimin rəhbərlik etdiyi nümayəndə heyəti ATU-nun rektoru, professor Gəray Gəraybəyli ilə görüşüb.

Görüşdə iki universitet arasında əməkdaşlığın tarixi, ikitərəfli və mübadilə proqramları çərçivəsində əməkdaşlıq istiqamətləri, birgə elmi-tədqiqat işlərinin planlaşdırılması müzakirə olunub.

Görüşdə Türkiyə universitetinin prorektorları, professorlar Nuri Kahveci və Orhan Doğan, elmi katib Ali Riza Bekler, müəllim Hemran Amirli, eləcə də ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov və İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Günel Aslanova iştirak ediblər.

# İstanbul Universitetinin rektoru ilə görüşdə əməkdaşlıqdan danışılıb



**Türkiyənin İstanbul Universitetinin rektoru, professor Osman Bülent Zülfikar Azərbaycan Tibb Universitetində olub.**

ATU-nun rəhbər şəxsləri ilə görüşdə türkiyəli qonağa universitetin tələbələr üçün təqdim etdiyi imkanlar, müasir tədris proqramları, əməkdaşların elmi fəaliyyəti, xarici ali məktəblərlə əlaqələr əsnasında həyata keçirilən işlər və s. barədə ətraflı məlumat verilib.

Sonra iki universitet arasında mövcud əməkdaşlığın gücləndirilməsi, ortaq layihələrin sayının və formatının genişləndirilməsi ilə bağlı müzakirələr aparılıb. ATU ilə İstanbul Universiteti arasında indiyədək həyata keçirilən mübadilə proqramları, birgə onlayn dərslərin təşkili kimi fəaliyyətlərin davam etdirilməsi və yeni layihələrin icrasına dair fikirlər səsləndirilib.

Görüşdə ATU-nun Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov, Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayev, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov, İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinin müdiri Aygün Babayeva və İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Günel Aslanova iştirak ediblər.

**Aprelin 12-14-də Bolqarıstanın Albena şəhərində karatenin Şotokan üslubu üzrə dünya çempionatı keçirilib. "Təbib" idman klubunun sədri, əməkdar məşqçi Qələndər Aslanovun məlumatına görə, çempionatda yığma komandanın tərkibində Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinin III kurs, 621A-1a qrup tələbəsi Vüsal Seyidov üç fərqli kateqoriyada ölkəmizi təmsil edib.**

# Tələbəmiz dünya çempionatında üç medal qazanıb

## Rektor, professor Gəray Gəraybəyli böyük uğura imza atmış Vüsal Seyidovu qəbul edib



Belə ki, U21 yaş, 60 kq çəkidə mübarizə aparan idmançı tələbəmiz bütün rəqiblərinə qalib gələrək, yalnız final görüşündə türkiyəli rəqibinə 6:5 hesabı ilə məğlub olub və fəxri kürsünün ikinci pilləsində yer alıb. Bununla razılaşmayan idmançımız, komanda üslubunda yarışlarda gücünü sınamağa üstünlük verib və iki döyüş ardıcıl qalib olmaqla, komanda hesabında qızıl medal qazanıb. Bu qələbədən sonra çempionumuz yarışın daha çətin kateqoriyasında gücünü sınayıb. Lakin bu kateqoriya Vüsal üçün elə də asan olmayıb. İlk dəfə 67 kq çəkidə döyüşən idmançı tələbəmiz aldığı zədələrdən yarımfinal döyüşündə mübarizəni dayandırmalı olub və bürünc medal qazanmaqla, dünya çempionatının ümumilikdə 3-cü medalını əldə edib.

Beləliklə, 32 ölkədən idmançıların qatıldığı dünya çempionatında Vüsal Seyidov Qazaxıstan, Moldova, Rumıniya, Macarıstan, Türkiyə, Bolqarıstan və Qambiya idmançıları üzərində qələbə qazanmaqla fəxri kürsünün hər üç pilləsinə adını yazdırıb.

ATU-nun rektoru, professor Gəray Gəraybəyli böyük uğura imza atmış tələbəmiz V.Seyidovu qəbul edib. Onu bu nailiyyəti münasibətilə təbrik edən rektor, universitetimizi layiqincə təmsil etdiyi üçün təşəkkürünü bildirib. Professor G.Gəraybəyli hər bir ölkənin dünyada tanıdılmasında idmanın xüsusi rol oynadığını diqqətə çatdırıb: "Beynəlxalq səviyyəli idman yarışlarında medal qazanan idmançılarımız Azərbaycanın himnini səsləndirir, bayrağını dalğalandırırlar. Biz təhsili ilə yanaşı, bu cür mühüm missiyanı uğurla həyata keçirən gənclərimizlə qürur duyuruq".

Rektor gələcəyin həkimi Vüsal Seyidovun dünya çempionatında 3 medal qazanmasını əzmkarlıq nümunəsi kimi qiymətləndirərək, ona təşəkkürnamə və mükafat təqdim edib.

Görüşdə ATU-nun "Təbib" idman klubunun rəhbəri Qələndər Aslanov da iştirak edirdi.

## Səmərqənd Tibb Universitetinin nümayəndə heyəti ATU ilə tanışlıqdan razı qalıb



**Özbəkistanın Səmərqənd Dövlət Tibb Universitetinin nümayəndə heyəti Azərbaycan Tibb Universitetinin fəaliyyəti ilə tanış olmaq və öz sahələri üzrə akademik mübadilə aparmaq üçün bu günlərdə ATU-da olub.**

Qonaq müəllimlər ATU-nun Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyevin müşayiəti ilə universitetin Stomatoloji Klinikasında, İnsan anatomiyası və tibbi terminologiya, Patoloji fiziologiya, Patoloji anatomiya və Ağız və üz-çənə cərrahiyyəsi kafedralarında tanışlıq xarakterli görüşlər keçirib, qarşılıqlı fikir mübadiləsi aparıblar. Eyni zamanda Anatomiya Muzeyində saxlanılan unikal eksponatlarla tanış olublar.

Daha sonra nümayəndə heyətini qəbul edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli qonaqlara ölkəmizdə tibb üzrə ali təhsilin strukturu, universitetin tarixi və fəaliyyəti haqqında ətraflı məlumat verib. Bildirib ki, ATU-da hazırda 4 müasir klinika, 6 tədris binası və inzibati bina, yüksək təchizatlı tələbə yataqxanaları, internet mərkəzi, 1 milyona yaxın kitab fondu olan kitabxana fəaliyyət göstərir. Azərbaycan Tibb Universitetinin xarici tələbə sayına görə öndə olduğunu söyləyən rektor, gələcəkdə Səmərqənd Dövlət Tibb Universiteti ilə daha sıx əlaqələr qurulacağına əminliyini vurğulayıb.

Nümayəndə heyətinin rəhbəri, Patoloji fiziologiya kafedrasının müdiri, professor Gülnoza Samiyeva səmimi qəbul üçün rektor G.Gəraybəyli başda olmaqla Azərbaycan Tibb Universitetinin rəhbərliyinə təşəkkürünü bildirib, ATU ilə tanışlıqdan məmnun qaldıqlarını ifadə edib. Qonaq təmsil etdiyi ali təhsil müəssisəsi haqqında məlumat verərək ATU ilə qarşılıqlı əlaqələrin inkişafında maraqlı olduqlarını deyib.

Görüşdə Səmərqənd Dövlət Tibb Universitetinin Diplomdansonrakı və əlavə təhsil fakültəsinin Stomatologiya kafedrasının müdiri, professor Nodira Nazarova, Uşaq stomatologiyası kafedrasının dosenti Malika Axrorova və Dental implantologiya kafedrasının müdiri, Magistratura fakültəsinin dekanı, dosent Əlişir Xazratov, o cümlədən ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov, Tədris Departementinin müdiri, dosent Kamandar Yaqubov və Mətbuat xidmətinin rəhbəri Günel Aslanova iştirak ediblər.

**Aprelin 16-da Azərbaycan Tibb Universiteti Tələbə Həmkarlar İttifaqı Komitəsinin hesabat-seçki yığıncağı keçirilib. Əvvəlcə Dövlət Himnimiz səsləndirilib və torpaqlarımızın azadlığı uğrunda öz həyatlarını qurban vermiş şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad olunub.**

## Tələbə Həmkarlar İttifaqı Komitəsinin hesabat-seçki yığıncağı keçirilib

### Rektor, professor Gəray Gəraybəyli: Xalqımızın qazandığı böyük zəfər gənc nəsillər üçün vətənpərvərlik nümunəsidir



Hesabat-seçki yığıncağının əlamətdar bir dövrə təsadüf etdiyini vurğulayan tədbirin moderatoru, ATU-nun Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov gündəlikdə duran məsələləri konfrans iştirakçılarının nəzərinə çatdıraraq seçki ilə bağlı vacib məqamlara toxunub və yeni seçiləcək heyətin öz fəaliyyətini uğurla davam etdirəcəyinə əminliyini bildirib.

Bundan sonra Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) 2017-2024-cü illərdəki fəaliyyətinə dair komitənin sədri Qoşqar İsmayılovun hesabatı dinlənilib. Son 7 il ərzində komitə tərəfindən görülən işlər haqqında ətraflı məlumat verən Q.İsmayılov tədris korpuslarında, o cümlədən yataqxanalarda nizam-intizamın gücləndirilməsi istiqamətində atılan addımların, komitənin təşəbbüsü ilə təşkil olunan, tələbələrin vətənpərvərlik ruhunda tərbiyə edilməsində mühüm rol oynayan tədbirlərin əhəmiyyətindən danışıb. Eyni zamanda komitənin nəzdində fəaliyyət göstərən ictimai təşkilatların uğurlarını diqqətə çatdırıb.

Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Komitəsinin sədr müavini Elnarə Muradova da tədbirdə çıxış edərək II Qarabağ müharibəsində qazandığımız şanlı qələbədən, bu qələbədə gənclərimizin göstərdiyi fədakarlıqdan söhbət açıb. Bunu ilk növbədə gənclər arasında düzgün ideoloji təbliğat aparılmasının nəticəsi kimi dəyərləndirib. Qeyd edib ki, bu istiqamətdə tələbə təşkilatları, eləcə də ATU THİK öz vəzifələrini layiqincə yerinə yetirib. O, təmsil etdiyi qurumun tələbə təşkilatlarına həmişə dəstək verdiyini və bundan sonra da öz köməyini əsirgəməyəcəyini deyib.

Tələbə Həmkarlar İttifaqı Komitəsinin "Teatr klubu"nun sədri Dilbər Əliyeva, "İntellektual oyunlar klubu"nun sədri Arzu Musayeva, II Müalicə-profilaktika fakültəsinin I kurs tələbəsi Aytac Şükürlü və III kurs tələbəsi Həmid Səfərli, I Müalicə-profilaktika fakültəsinin II kurs tələbəsi Aytəkin Quliyeva çıxışlarında komitə üzvlərinin universitetin ictimai həyatında xüsusi fəallıq göstərdiklərini söyləyiblər və hesabatı qənaətbəxş qiymətləndiriblər.

Konfransda çıxış edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli əvvəlcə Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi, şəhidlərimizin canı və qazilərimizin gücü sayəsində xalqımızın qazandığı böyük zəfərin gənc nəsillər üçün vətənpərvərlik, milli birlik və həmrəylik nümunəsi olduğunu xatırladıb. Bildirib ki, həm 44 günlük Vətən müharibəsi, həm də ötən ilin sentyabr ayında rəşadətli ordumuz tərəfindən həyata keçirilən lokal antiterror tədbirləri Azərbaycanın suverenliyinin tam təmin olunması ilə nəticələnib.

Professor G.Gəraybəyli daha sonra Tələbə Həmkarlar İttifaqı Komitəsinin universitetimizdə müsbət istiqamətdə gördüyü işlərdən məmnunluqla söhbət açaraq, komitənin nəzdində fəaliyyət göstərən "Teatr klubu"nun peşəkar səviyyədə tamaşalar hazırladığını xüsusi vurğulayıb. Həmin tamaşaları tələbələrin, universitetin professor-müəllim heyətinin və şəxsən özünün maraqla izlədiyini söyləyən rektor, ümumilikdə komitənin fəaliyyətini müsbət qiymətləndirib və yeni seçiləcək heyətə uğurlar arzulayıb.

Hesabat-seçki yığıncağında Qoşqar İsmayılov yenidən Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri seçilib. İclasda komitənin idarə heyəti və nəzarət-təftiş komissiyasının tərkibi də formalaşdırılıb.

**Səttar Bəhlulzadə adına Xarici Dillər Təmayüllü Gimnaziyanın bir qrup şagirdi müəllimlərin müşayiəti ilə Azərbaycan Tibb Universitetində olub, rektor, professor Gəray Gəraybəyli ilə görüşüb. Gələcəkdə ATU-nun tələbəsi olmaq istəyən məktəblilərlə görüşdə ATU Tədris Departamentinin rəhbəri, dosent Kamandar Yaqubov və universitet fakültələrinin dekan və dekan müavinləri iştirak edib.**



## Şagirdlər ATU-nun rektoru ilə görüşüb

### Gələcəyin tələbələrinə universitetlə bağlı ətraflı məlumat verilib

Rektor gimnaziya şagirdlərinin universitetin həyatı ilə əyani tanış olmaq təşəbbüsünü yüksək qiymətləndirib: "Ölkəmizin, cəmiyyətimizin gələcəyi olan siz şagirdlərlə görüşmək mənim üçün çox xoşdur. 90 ildən çox tarixi olan Tibb Universiteti ölkəmizin ən qabaqcıl universitetlərindən biridir. Müasir və yeniliklər tələb edən bir cəmiyyətdə universitetimiz zamandan geri qalmamağa çalışır. Dövlət rəhbərliyinin, ictimaiyyətin universitetimizə marağı olduqca yüksəkdir. Ən qabaqcıl və intellektual gənclər məhz bizim universiteti seçir. Heç də təsadüfi deyil ki, hər il 600-dən çox bal toplayan xeyli sayda abituriyent bizim universitetdə oxuyur. Tələbələrimiz öz yüksək bilik və bacarıqlarını təkcə tədrisdə deyil, digər sahələrdə də nümayiş etdirirlər. Onların idman, incəsənət və digər sahələrdə öz qabiliyyətlərini göstərmələri üçün universitetimizdə geniş imkanlar var, bunun üçün 12 klub fəaliyyət göstərir. "Teatr", "Bilik", "İdman", "Kitab" və digər ixtisaslaşmış klublarda, o cümlədən universitetimizin ictimai həyatında tələbələrimiz fəallıq göstərirlər. Onlar 20 Yanvar, Xocalı faciəsi, Zəfər Günü, milli bayramlarımızla bağlı müxtəlif tədbirlər təşkil edirlər.

Universitetimizdə 60 ildən çox yaşı olan "Çinar" rəqs ansamblı fəaliyyət göstərir. Vaxtilə bu ansambla Əminə Dilbazi rəhbərlik edib".

Şagirdlərin Tibb Universitetinə marağını və gimnaziya rəhbərliyinin uyğun təşəbbüsünü alqışlayan professor G.Gəraybəyli onların diqqətinə çatdırıb ki, həkimlik fəaliyyəti insandan çox şey tələb edir: "Əvvəllər 6 il oxuyub həkim olurdun. Təhsildə olan dəyişikliklərdən sonra müasir dövrdə bu proses 9-11 il arası vaxt tələb edir. 6 il sadəcə baza təhsilidir. Sonrakı illərdə ixtisas seçimi edilir. Son illər ATU-da yeni ixtisaslar açılıb və başqa ixtisasların açılmasını da planlaşdırırıq".

Tədris Departamentinin rəhbəri Kamandar Yaqubov yeni açılmış ixtisaslarla bağlı ətraflı məlumat verib, dekan və dekan müavinlərini təqdim edib. Onlar isə rəhbərlik etdikləri fakültələr barədə görüş iştirakçılarını ətraflı məlumatlandırıb.

Görüşdə bildirilib ki, hər il 600-dən çox bal toplayan 450-dən çox tələbə ATU-nu seçir. Tibb Universiteti Azərbaycanda yeganə universitetdir ki, 3 ixtisas – Müalicə işi, Stomatologiya və Əczaçılıq üzrə beynəlxalq akkreditasiyadan keçib.

Şagirdlərin böyük həvəslə iştirak etdiyi görüşün sonunda onları maraqlandıran çoxsaylı suallar universitetin məsul şəxsləri tərəfindən cavablandırılıb.

## ATU əməkdaşları prezident seçkilərində aktiv iştiraka görə təltif olunub







**Azərbaycan Tibb Universitetinin Tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev fevralın 7-də ölkəmizdə keçirilmiş növbədənkənar prezident seçkilərində səmərəli fəaliyyətinə görə təltif olunan əməkdaşlar - Epidemiologiya kafedrasının müdiri, professor İbadulla Ağayev və Tələbə Elmi Cəmiyyətinin sədri, dosent Müşfiq Həsənovla görüşüb.**

Görüşdə növbədənkənar prezident seçkilərinin yeni reallıqların doğurduğu yeni hədəflərə doğru atılmış mühüm addım olduğu vurğulanıb. Belə ki, suverenliyini tam bərpa edən Azərbaycanda ilk dəfə olaraq bütün ərazilərdə seçki məntəqələri fəaliyyət göstərib. Xalqımızın növbəti dəfə sülhə, inkişafa, suverenliyə səs verdiyini nəzərə çatdıran prorektor S.Əliyev seçkilərdəki aktivliyə görə mükafatlandırılanlar sırasında ATU əməkdaşlarının yer almasını xüsusi vurğulayıb.

Qeyd edək ki, professor İbadulla Ağayevə Yeni Azərbaycan Partiyası Hacıqabul rayon təşkilatının fəaliyyətində aktiv iştirakına və prezident seçkiləri zamanı rayonda seçki prosesinin azad, şəffaf keçirilməsinə verdiyi töhfələrə görə adıçəkilən rayon təşkilatının sədri İsmayıl İbrahimov tərəfindən "Təşəkkürnamə" təqdim olunub.

Eyni zamanda, ATU-nun professoru Qalib Qarayev və Tələbə Elmi Cəmiyyətinin sədri, dosent Müşfiq Həsənov YAP tərəfindən namizədliyi irəli sürülmüş İlham Əliyevin seçkiqabağı təşviqat kampaniyasında göstərdikləri yüksək xidmətlərə görə YAP Füzuli rayon təşkilatının sədri Nazimə Şamıyeva tərəfindən "Fəxri fərman"la təltif ediliblər.

Görüşdə prorektor S.Əliyev fəxri fərman və təşəkkürnaməni ATU əməkdaşlarına təqdim edib, universiteti layiqli şəkildə təmsil etdiklərinə görə onlara təşəkkürünü bildirib.

# Xarici tələbələrin sayının çox olması universitetin beynəlxalq nüfuzunun göstəricisidir

## Azərbaycan Tibb Universiteti Böyük Elmi Şurasının növbəti iclası keçirilib

**Aprelin 23-də ATU-nun Böyük Elmi Şurasının növbəti iclası keçirilib. Şura üzvlərini salamlayan rektor, professor Gəray Gəraybəyli gündəlikdə duran məsələləri diqqətə çatdırdıqdan sonra Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayevin 2023-cü il ərzində görülmüş işlər və qarşıda duran vəzifələr barədə məruzəsi dinlənilib.**

Universitetimizin xarici tələbələrinin sayının ildən-ilə artdığını və ATU-nun beynəlxalq əməkdaşlıq coğrafiyasının genişləndiyini söyləyən prorektor, nəticələri slayd vasitəsilə müqayisəli formada təqdim edib. O, Beynəlxalq əlaqələr üzrə prorektorun kurasiya etdiyi struktur vahidlərinə Xarici tələbələrlə iş üzrə dekanlıq və Beynəlxalq əlaqələr şöbəsinin daxil olduğunu bildirib. Buna görə də 2024-cü ildə Xarici tələbələrlə iş üzrə dekanlığın adı dəyişdirilərək Əcnəbi təhsilalanlarla iş üzrə dekanlıq olub.

O.İsayev vurğulayıb ki, Azərbaycanda təhsil alan əcnəbilərin üçdəbiri ATU-nun tələbələridir. Əcnəbi tələbələrin ölkəmizdə təhsilə təşviqi və təhsilinin təşkili sahəsində xüsusi fərqləndiyinə görə universitetimiz Elm və Təhsil Nazirliyi tərəfindən təşəkkürnamə ilə təltif edilib: "Nazirlik son 5 tədris ili üzrə əcnəbilərin sayında artım dinamikası, tələbələrin qəbulu və məlumatların toplanması sistemlərinin səmərəli istifadəsi, əcnəbi tələbələrin ictimai-sosial aktivliyinin təmin olunması kimi meyarları nəzərə alıb. "Əcnəbi vətəndaşların cəlbinin təşviqi və təşkili", "Beynəlxalq reytinq cədvəllərində iştirak və proqramların akkreditasiyası" mövzularına həsr olunan panellərdə yerli və beynəlxalq ekspertlər çıxışlar edib, maraqlı müzakirələr aparılıb".

Məruzəçi hazırda ATU-da 50-yə qədər ölkədən 2900-ə yaxın əcnəbi vətəndaşın oxuduğunu, onların hazırlıq kursu, baza ali tibb təhsili, bakalavr, rezidentura, magistratura və doktorantura pillələri üzrə təhsil aldığını söyləyib. O, vurğulayıb ki, xarici tələbələrin 51 faizini təşkil edən Türkiyə və İran vətəndaşları Azərbaycan dilində təhsil alır: "Ötən il bu rəqəm 48 ölkədən 2873 nəfər olub. Əcnəbi vətəndaşlar 5 təhsil pilləsi üzrə təhsil alır. Baza ali tibb təhsili və bakalavr pilləsi üzrə hazırda 2318 nəfər əcnəbi tələbəmiz var. Keçən il bu rəqəm 2384 nəfər idi. Rezidenturada 81 nəfər təhsil alır ki, ötən il bu rəqəm 73 nəfər olub.

Magistratura təhsil pilləsi üzrə hesabat ilində ötən il olduğu kimi, 2 nəfər magistrant təhsil alır. Doktorantura pilləsində isə 3 nəfər doktorant təhsil alır ki, bu rəqəm ötən il 1 nəfər idi. Hazırlıq kursunda hazırda 545 nəfər dinləyici təhsil alır. Ötən il bu rəqəm 413 nəfər olub".

Prorektor O.İsayev çıxışında beynəlxalq reytinqlər, yerli universitetlərin bu reytinqlərdə iştirakı, Azərbaycan Tibb Universitetinin beynəlxalq akkreditasiya təcrübəsi, keçilən mərhələlər və akkreditasiyanın universitetə qazandırdığı üstünlüklər haqqında ətraflı məlumat verib.

Çıxışında miqrasiya məsələlərinə də yer ayıran natiq bildirib ki, Xarici tələbələrlə iş üzrə dekanlığın funksiyalarından biri də əcnəbilərin qeydiyyat məsələlərinə dəstək verməkdir: "Xarici tələbələrin sayının ildən-ilə artması ilə əlaqədar olaraq, universitet bəzi addımlar atıb. Dövlət proqramlarının icrası ATU tərəfindən 2 istiqamətdə aparılır. İslam Əməkdaşlıq Təşkilatına (İƏT) və Qoşulmama Hərəkatına (QH) üzv ölkələrin vətəndaşları üçün təhsil qrantı proqramları fəaliyyətdədir. Diqqətinizə çatdırmaq istərdim ki, cənab Prezidentimizin 6 dekabr 2017-ci il tarixli Sərəncamı ilə İƏT-ə üzv dövlətlərin vətəndaşları, eləcə də 10 yanvar 2018-ci il tarixli Sərəncamı ilə Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşları üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrində tədris dilinə uyğun hazırlıq kursları və ali təhsilin bakalavriat, magistratura, doktorantura, tibb təhsili üzrə əsas təhsil və rezidentura səviyyələrində təhsil qrantı proqramları təsis edilib".



Tədris prosesinin zamanın tələbləri səviyyəsində qurulmasının, beynəlxalq əlaqələrin genişləndirilməsinin prioritet istiqamət olduğunu vurğulayan prorektor nəzərə çatdırıb ki, artıq neçə ildir ingilis dili kursları təşkil olunur ki, bu da müəllimlərin dil biliklərinin təkmilləşməsində mühüm rol oynayır. O, əlavə edib ki, prorektorluğun qarşısında duran əsas məsələlərdən biri beynəlxalq proqramlarda universitetin müəllim və tələbələrinin aktiv iştirakının təşkil edilməsi, eləcə də dünyanın qabaqcıl elm qurumları ilə daha sıx əlaqələrin qurulmasıdır. Qeyd olunub ki, ATU-nun xarici ölkə universitetlərinə çıxışları ildən-ilə yüksəlir və bu istiqamətdə dünyada tanınmış bir sıra universitetlərlə ikitərəfli memorandumlar imzalanmışıq.

Hesabat dövrü ərzində keçirilən mühüm tədbirlərə və cari məsələlərə də toxunan O.İsayev beynəlxalq əlaqələr sahəsində həllini tapan və eləcə də görülməsi nəzərdə tutulan bir sıra işləri də şura üzvlərinin diqqətinə çatdırıb.



Məruzə ətrafında çıxış edən Allerqologiya və immunologiya kafedrasının müdiri, professor Lalə Allahverdiyeva, Ağız və üz-çənə kafedrasının müdiri, professor Çingiz Rəhimov, Nevrologiya kafedrasının müdiri, professor Aytən Məmmədbəyli və başqaları hesabatı qənaətbəxş hesab edərək, prorektorluğun fəaliyyətini yüksək qiymətləndiriblər. Onlar universitetimizin son zamanlar beynəlxalq aləmdə əldə etdiyi nailiyyətləri və nüfuzunun yüksəlməsini vurğulayıb, xarici ölkələrə səfərləri zamanı səmərəli əməkdaşlıq fəaliyyətini qeyd ediblər. Çıxışçılar bütün bunlarla yanaşı, bir sıra mövcud problemlərin həlli istiqamətində təklif və rəylərini də dilə gətiriblər.

Hesabat məruzəsinə münasibətini bildirən rektor, professor G.Gəraybəyli prorektorluğun apardığı işləri yüksək dəyərləndirdiyini və xarici tələbələrin sayının çox olmasının universitetin beynəlxalq aləmdə nüfuzunun göstəricisi kimi qəbul edildiyini bildirib. Diqqəti beynəlxalq əlaqələrə yönəldən universitetin rəhbəri müəllimlərin ingilis dilini mənimsəməsini önə çəkib və gələcəkdə bu istiqamətdə səmərəli addımların atılmasının vacibliyini vurğulayıb: "Son illər xarici tələbələrin sayının artması müşahidə olunur, bu müsbət haldır. Bəzən tələbələr şikayət edir ki, biz ingiliscə oxuyuruq. lakin müəllim Azərbaycan dilində dərs deyir. Bilməliyik ki, əcnəbi tələbələr olduqca tələbkardır. Bu da bizdən dərsin keyfiyyətini və tədris vəsaitlərinin müasirliyini tələb edir. Hazırda hazırlıq kursunda 550 xarici vətəndaş oxuyur, onların 480-i Türkiyə vətəndaşlarıdır. Qarşımızda duran əsas vəzifə beynəlxalq reytinqdə universitetimizin ilk minliyə düşməsidir. Çünki Türkiyədə yeni hazırlanmış qanun layihəsi xaricdə əldə olunmuş diplomların öz ölkəsində tanınmasına məhdudiyyət qoyur. Artıq bu məqsədlə komissiya yaratmışıq və müvafiq şöbə ciddi şəkildə məşğul olur".

Rektor qeyd edib ki, beynəlxalq əlaqələrin əhatə dairəsi yalnız bir prorektorluq, şöbə və yaxud da dekanlıqla məhdudlaşmır: "Bildiyiniz kimi, hər bir kafedrada beynəlxalq əlaqələr üzrə koordinatorlar müəyyən olunub. İndi kafedralara məlumatlar elektron poçt vasitəsilə göndərilir. Amma həmin informasiyalar bəzi kafedralarda diqqətdən kənarda qalır və universitetimizin saytında və qəzetdə məlumat dərc olunduqdan sonra bildirirlər ki, daha əvvəldən xəbərimiz olmayıb. Bu hal aradan qaldırılmalıdır".

Sonra müxtəlif məsələlərə münasibət bildirən Böyük Elmi Şura Ortodontiya kafedrasının Stomatologiya fakültəsinin tərkibinə daxil edilməsini təsdiqləyib. Bundan başqa, Akkreditasiya və Reytinq üzrə Müstəqil Agentlik (IAAR - Independent Agency For Accreditation and Ratıng) ilə ATU arasında akkreditasiyadan sonrakı monitorinqin birinci mərhələsi üçün müqavilənin bağlanması məsələsinə baxılıb.

Sonda dərslik, dərs vəsaitləri və metodik vəsaitlərin nəşrini təsdiqləyən şura, müsabiqə məsələlərini həll etməklə öz işini başa çatdırıb.

**M.ƏLƏKBƏRLİ**

# Akademik Zərifə Əliyevanın işıqlı xatirəsi bu gün də ürəklərdədir

## Görkəmli oftalmoloq-alimin anadan olmasının 101 illiyi ilə əlaqədar elmi-praktik konfrans keçirilib

**Aprelin 22-də ATU-nun Oftalmologiya kafedrasında akademik Zərifə xanım Əliyevanın anadan olmasının 101 illiyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib.**

Əvvəlcə akademik Zərifə Əliyevanın həyat və fəaliyyətinə həsr olunmuş "Zərif ömür" filmi nümayiş etdirilib.

Bundan sonra kafedranın müdiri, professor Paşa Musayev (Qəlbinur) hər il 28 aprel ərəfəsində görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevaya həsr olunmuş silsilə tədbirlərin keçirildiyini vurğulayıb. Bu cür konfransların Oftalmologiya kafedrasında artıq ənənə halını aldığını xatırladan professor bildirib ki, Zərifə xanım dahi şəxsiyyət Heydər Əliyevin ömür-gün yoldaşı olmaqla yanaşı, tibb sahəsində işləyənlər, xüsusilə də oftalmoloqlar üçün çox doğma, unudulmaz bir insandır. O qeyd edib ki, Z.Əliyevanın adı həm də keçmiş SSRİ-də oftalmologiya sahəsində ən mötəbər mükafat olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülmüş ilk qadın alim kimi oftalmologiya elminin tarixinə düşüb.



Kafedra müdiri görkəmli alimin yüksək insani xüsusiyyətləri, təvazökarlığı, xeyirxahlığından da məmnunluqla söz açaraq, onun hər zaman sonsuz hörmət və məhəbbətlə xatırlandığını söyləyib: "Zərifə xanım ilk növbədə görkəmli dövlət xadimi Əziz Əliyevin qızı, daha sonra Ümummilli Lider Heydər Əliyevin həyat yoldaşı və Azərbaycan xalqına İlham Əliyev kimi müzəffər lider bəxş edən ana idi. Eyni zamanda, gənc həkimlərin tərbiyəsinə, onların peşə fəaliyyəti ilə bağlı problemlərinin öyrənilməsinə və həllinə böyük zəhmət sərf edib.

Çoxsaylı məqalələri, çıxışları, kitabları, elmi monoqrafiyaları həkimlərin cəmiyyətdə şəxsiyyət kimi formalaşması prosesinə dəyərli töhfədir. Qürurla deyə bilərik ki, 1985-ci ilin 15 aprelindən ölümsüz həyatı başlanan akademik Zərifə xanım Əliyevanın ardıcılları onun ideyalarını daim yaşadır və uğurla davam etdirirlər. Onun işıqlı xatirəsi bu gün də insanların qəlbindədir".

Daha sonra oftalmologiyanın aktual problemlərinə dair maraqlı məruzələr dinlənilib və müzakirələr aparılıb.

# Stomatologiya fakültəsində TEC-in 49-cu konfransı keçirilib

## 53 tələbənin məruzələri dinlənilib, qaliblər mükafatlandırılıb





**Azərbaycan Tibb Universitetinin fakültələrində Tələbə Elmi Cəmiyyətinin ənənəvi konfransları start götürüb. İlk olaraq Stomatologiya fakültəsində TEC-in 49-cu konfransı keçirilib.**

Universitetin Stomatoloji Klinikasında kliniki bölmə üzrə keçirilən konfransı Stomatologiya fakültəsinin dekanı, təşkilat komitəsinin sədri, dosent Elmira Əliyeva açıb. O, tələbələrin ildən-ilə daha böyük həvəslə elmi-tədqiqat işlərinə qatılmalarını yüksək dəyərləndirərək, bu gün ilk addımlarını atan gələcəyin alimlərinə uğurlar arzulayıb.

Kliniki bölmədə stomatologiyanın aktual problemlərinə həsr edilmiş 30 məruzə dinlənilib. Konfransda Ağız və üz-çənə cərrahiyyəsi üzrə 9, Ortopedik stomatologiya üzrə 9, Terapevtik stomatologiya üzrə 5, Uşaq stomatologiyası üzrə 3, Ortodontiya kafedrası üzrə isə 4 məruzə dinlənilib.

Çıxışlardan sonra fakültə TEC-in elmi rəhbəri, baş müəllim, f.ü.f.d. Aybəniz Qadaşova məlumat verib ki, bu il məruzəçi tələbələr daha hazırlıqlı olublar. Belə ki, onlar sərbəst çıxış edərək, kliniki materiallarını əyani surətdə kompüter görüntüləri ilə nümayiş etdirib, suallara düzgün cavab veriblər.

Münsiflər heyətinin rəyinə əsasən, məruzəçilərdən Yaşar Məmmədli və Fatimə Pənahova I, Emin Abbasov, Fuad Həsənov və Xəyal Fətullayev II, Behtar Ashkan və Mehin Rəştiyeva isə III yerləri tutaraq TEC-in 49-cu konfransının xüsusi mükafatını alıblar. Qalan iştirakçılara isə sertifikatlar təqdim olunub.

İki gün davam edən konfransın xarici dillər bölməsi üzrə iclası isə Xarici dillər kafedrasında baş tutub. Konfransı açan TEC-in kafedra üzrə sədri Elvina Qulamova iştirakçıları salamlayaraq, münsiflər heyətini təqdim edib. O bildirib ki, Prezident İlham Əliyevin 25 dekabr 2023-cü il tarixli Sərəncamı ilə 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Sərəncamın əhəmiyyətindən danışan E.Qulamova əlavə edib ki, bu əslində bir çağırışdır və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələri zamanı baş verəcək fəsadların qarşısının alınması işinə bir töhfə olacaq. Daha sonra konfransda ingilis, rus və alman dillərində 23 tələbənin çıxış edəcəyini deyib və sözü məruzəçi tələbələrə verib.

Bundan sonra tələbələr öz məruzələrini sərbəst şəkildə təqdim ediblər. Diskussiya şəraitində keçən müzakirələrin sonunda münsiflər heyətinin gəldiyi qənaətə görə, Sevinc Hacızadə, Xədicə Əlizadə və Amel Cavadova I, Sona Şahmalıyeva, Fatimə İldırımzadə, Selcan İsazadə və Lalə Namazova II, Rabit Arixov, Amin Vəlizadə və Alik Atakişiyev isə III yerlərə layiq görülərək, diploma mükafatlandırılıblar. Qalan iştirakçılara konfransın sertifikatı təqdim edilib.

Sonda çıxış edən fakültə dekanı Elmira Əliyeva Xarici dillər kafedrasında TEC-in işinin yaxşı təşkilinə görə kafedranın müdiri, f.e.d, professor Zemfira Məmmədova, fakültə TEC-in elmi rəhbəri Aybəniz Qadaşova, TEC-in kafedra üzrə sədri Elvina Qulamova, eləcə də tələbələrə elmi rəhbərlik edən müəllimlərin zəhmətini yüksək qiymətləndirib. Tələbələrin fəallığını qeyd edən dekan, münsiflər heyətinə də minnətdarlığın bildirib.

**Aprelin 24-də Azərbaycan Tibb Universitetinin Əczaçılıq fakültəsi Tələbə Elmi Cəmiyyətinin konfransı keçirilib. Konfransı giriş sözü ilə fakültə üzrə TEC-in rəhbəri, dosent Nərgiz Məmmədova açıb.**





# Əczaçılıq fakültəsi Tələbə Elmi Cəmiyyətinin konfransı baş tutub

O, konfrans iştirakçılarını salamlayaraq bildirib ki, fakültə TEC-in üzvləri ilboyu gördükləri işin hesabatını verəcəklər: "Tədbirimizə geniş şəkildə hazırlaşmışıq. Bu gün həm professor-müəllim heyətimiz, həm də tələbələr üçün əsl bayramdır. Konfransa təqdim edilmiş 43 elmi iş üzrə 20 qalibin seçilməsi nəzərdə tutulub. Təşkilatımız hər il qaliblərin qaliblərini seçir. Bu dəfə də belə olacaq. İldən-ilə iştirakçılarımızın sayı artır. Bu da universitet rəhbərliyinin tələbələrə elmi araşdırmalar, tədqiqat işləri aparmaq üçün yaratdığı əlverişli şəraitdən, diqqət və qayğısından irəli gəlir".

Dövlət Himni səsləndirildikdən və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Əczaçılıq fakültəsinin dekanı, dosent Fərəh Mədətliyə söz verilib. F.Mədətli qeyd edib ki, universitetimizin inkişaf strategiyasının əsas prioritetlərindən biri olan Tələbə Elmi Cəmiyyətinin fəaliyyətindəki nailiyyətləri həm də fakültənin nailiyyətləri hesab etmək olar: "Bu istiqamətdə fakültəmizdə hər il müxtəlif işlər görülür və bu prosesə maraqlı insanlar cəlb olunur. Fakültənin professor-müəllim heyəti, TEC-in kafedralar üzrə dərnək rəhbərləri və TEC-in fakültə üzrə sədrinin ətrafında komanda şəklində toplanan tələbələrimiz bugünkü konfransın sanki bayram kimi gözləyiblər. Tələbələrimiz tədris ili başlayandan elmi rəhbərlərlə birgə işləyib, mövzuları seçib, kafedralarda müzakirə edib və s. təcrübi işlər görüblər. Nəhayət, qiymətləndirmə günü gəlib çatıb.

Bilirsiniz ki, TEC yarandığı ilk gündən istedadların beşiyi olub. Təşkilat tələbələrin elmi fəaliyyətlərində, o cümlədən tədqiqat işləri aparmaq istiqamətində elmi bacarıqlarını sınamaq üçün ilk platformadı. Bu istiqamətdə tələbələrə uğurlar diləyirəm".

Fakültə TEC-in fəaliyyətini əks etdirən videoçarx nümayiş etdiriləndən sonra məruzələr dinlənilib. Sonda qaliblər seçilərək, diploma mükafatlandırılıb.

**ATU-nun İnsan anatomiyası və tibbi terminologiya kafedrasının müdiri, dosent Anar Abdullayev Türk Dövlətləri Təşkilatı Türk Universitetlər Birliyinin ORHUN mübadilə proqramı çərçivəsində 1-13 aprel tarixlərində Türkiyənin Ərzurum şəhərində yerləşən Atatürk Universitetində fəaliyyət göstərib.**



# Əməkdaşımız Atatürk Universitetində fəaliyyət göstərib

A.Abdullayev universitetin İnsan anatomiyası kafedrasının müdiri, professor Samet Kapakinlə birgə ingilis bölməsi üçün təşkil olunmuş mühazirələrdə iştirak edib. Dosent Cengiz Öztürklə təcrübi dərsdə isə aşağı ətraf əzələlərinin xüsusiyyətləri tələbələrə izah olunub. Bundan əlavə, professor S.Kapakinlə elmi müzakirələr aparılıb, anatomiyanın müasir təbabətdə önəmli rolu qeyd edilib. Atatürk Universitetinin İnsan anatomiyası kafedrasında yeni elmi metodlarla tanış olan A.Abdullayev ATU-nun İnsan anatomiyası və tibbi terminologiya kafedrasının elmi nailiyyətləri barədə məlumat verib. Universitetin beynəlxalq əlaqələrindən danışan xarici əlaqələr departamentinin rəhbəri, professor Taşkın Öztaş isə Azərbaycan Tibb Universiteti ilə əməkdaşlığın böyük əhəmiyyətə malik olduğunu vurğulayıb.

Qeyd edək ki, ən modern şəkildə təchiz olunmuş Atatürk Universitetinin yerləşdiyi ərazi Türkiyənin böyüklüyünə görə ikinci və ilk planlı qurulan kampusudur. Universitetin klinikası təkcə Ərzurumun deyil, eləcə də bütün Şərqi Anadolunun və Şərqi Qara dəniz regionunun önəmli tibbi mərkəzidir. Tələbələr bu klinikada öz təcrübi biliklərini təkmilləşdirir, tibbin incəliklərinə yiyələnirlər.

# Avropa səviyyəli konqresdə Azərbaycan milli sessiyası təşkil olunub

**Türkiyənin Bələk şəhərində Avropa Pediatriya Assosiasiyası/Avropa Milli Pediatriya Cəmiyyətləri və Assosiasiyaları İttifaqının (EPA-UNEPSA, ARS) XI Konqresi keçirilib. Dünyanın 60-dan çox ölkəsindən iştirakçılar olan bu mötəbər tədbirdə ölkəmizi təmsil edən nümayəndə heyətinin tərkibində Azərbaycan Tibb Universitetinin əməkdaşları və Azərbaycan Pediatrlar Assosiasiyasının üzvləri də olub.**




Konqresdə ilk dəfə olaraq Azərbaycan Pediatrlar Assosiasiyası (APA) tərəfindən Azərbaycan milli sessiyası təşkil edilib. On iki ildən çoxdur EPA-UNEPSA-nın üzvü olan APA-nın sədri, Avrasiya Uşaq Həkimləri Federasiyasının vitse-prezidenti, ATU-nun II Uşaq xəstəlikləri kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Təranə Tağızadə tədbirdə "Tibb təhsilində bioetikanın inteqrasiyasının əhəmiyyəti" mövzusunda məruzə ilə çıxış edib. Eyni zamanda APA-nın üzvləri – tibb üzrə fəlsəfə doktoru, dosent Ülviyyə Hacıyeva "Uzun müddət davam edən COVID zamanı uşaqlarda miokardın tranzitor hipoksiyası", pediatr-neonatoloq-reanimatoloq Telman Aytayev "Xroniki xəstəliklər üçün peyvəndlər və onlar haqqında yeniliklər", endokrinoloq İlkin Məcidov "Anadangəlmə hipotireoz" mövzularında təqdimat keçiriblər. Çıxışlardan əlavə, konqresin xüsusi poster sərgisində həkimlərimizin 3 poster məruzəsi də təqdim edilib.

Məhsuldar keçən tədbirin sonunda APA-nın sədri T.Tağızadə və bir sıra üzvləri konqresin işinə verdikləri töhfəyə görə "EPA-UNEPSA-nın elm medalı", digər iştirakçılar isə TÜBİTAK və Avropa təşkilatının sertifikatları ilə təltif olunublar.

Qeyd edək ki, APA üzvlərinin konqresə təqdim etdiyi məqalələrin nüfuzlu "British Medical Journal"da dərc edilməsi nəzərdə tutulub.

# "Tədqiqatın dizaynı" layihəsi çərçivəsində təlimlər start götürüb

**Azərbaycan Tibb Universitetində "Tədqiqatın dizaynı" adlı silsilə seminarlara start verilib. Bu proqram çərçivəsində Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının dosenti Leyla Mansurova "Elmi-tədqiqat işinin aparılması" mövzusunda ilk təlim keçib.**

Təlimdə elmi-tədqiqatın aparılması ardıcıllığını əks etdirən alqoritm açıqlanıb. Dosent L.Mansurova elmi araşdırmaların eyni struktura malik olduğunu və müəyyən şablon əsasında aparıldığını bildirib.

Qeyd olunub ki, ilk öncə auditoriya üçün maraqlı olan və araşdırma nəticəsində həlli tapılacaq problem formalaşdırılmalıdır. Daha sonra məlumat mənbələri qeyd edilməli və lazımi göstəricilər müəyyənləşdirilməli, data-məlumatlar toplanmalıdır. Təhlil mərhələsində alınmış nəticələr statistik baxımdan düzgün formada işlənməli və nəticələr təqdim olunmalıdır. Bu nəticələrin təsiri elmi araşdırma ilə sübuta yetirilməlidir.

İnteraktiv formada keçirilən seminarda ATU-nun Müalicə-profilaktika, Stomatologiya və Əczaçılıq fakültələrinin tələbələri iştirak ediblər.

Növbəti seminar aprelin 25-də baş tutub. Əczaçılıq kimyası kafedrasının dosenti Fuad Məmmədov "Tələbələr tərəfindən sərbəst işlərin (layihələrin) tərtibi metodologiyası" mövzusunda çıxış edib.

Dosent sərbəst işlərdə planın necə tərtib edilməsi, hazırlanması, girişin verilməsi, nəzəri hissə, tədqiqat işlərində tətbiq edilən metodlar, nəticə, istifadə ediləcək ədəbiyyatların seçilməsi, lazımi əlavələrin necə verilməsi ilə bağlı tələbələri ətraflı məlumatlandırıb. Tövsiyə edib ki, tələbələr sərbəst iş götürən zaman mövzunun aktuallığına fikir versin, mövzunun nə dərəcədə aktual olmasını əsaslandıra bilsinlər: "Hazırkı dövrdə dil problemi yoxdur, internetin inkişaf etdiyi bir dövrdə müxtəlif dillərdə ədəbiyyatlar əldə etmək, tərcümə proqramları vasitəsilə istənilən xarici materialı ana dilimizə tərcümə etmək olur. 2-3 aya kifayət qədər material əldə etmək, ondan lazımi səviyyədə yararlanmaq mümkündür".

Sərbəst işlərin, elmi araşdırmaların effektiv şəkildə aparılmasının əhəmiyyətindən bəhs edən F.Məmmədov tələbələri maraqlandıran sualları da ətraflı cavablandırıb.

# Fizioterapevt və reabilitoloqların ilk konfransı keçirilib

**Aprelin 26-da Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında “Fizioterapiya və tibbi reabilitasiyanın inkişaf perspektivləri” mövzusunda elmi-praktik konfrans keçirilib. Əvvəlcə Dövlət Himnimiz səsləndirilib və ərazi bütövlüyümüz uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi yad olunub.**



Sonra ATU-nun Fizioterapiya və tibbi reabilitasiya kafedrasının assistenti Maral Dadaşova sözü universitetin Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərova verib. Prorektor xatırladıb ki, universitetin rəhbəri, professor Gəray Gəraybəylinin əmrinə əsasən, 2020-ci ildə təşkil olunan İctimai sağlamlıq kafedrasında fizioterapiya ixtisası yaradılıb: “II Qarabağ müharibəsi zamanı yaralanmış hərbçilərimizin reabilitasiyası və normal həyata qaytarılması üçün belə bir ixtisasın yaranmasına zərurət var idi. Bu istiqamətdə bu gün ilk konfrans keçirilir. Bir xoş məqam da ondan ibarətdir ki, konfransda tanınmış alimlərimizlə yanaşı, tələbələrimiz də çıxış edəcək. Bu da olduqca təqdirediçi haldır”.

Fizioterapiya və tibbi reabilitasiya kafedrasının professoru Sədaqət Hüseynova öz çıxışında bu sahənin tibbin digər sahələri kimi sürətlə inkişaf etdiyini bildirib: “Məqsəd bu sahədə çalışan həkimlərin məlumatlılığını artırmaq, biliklərini təkmilləşdirməkdən ibarətdir. Keçirilən konfransın əhəmiyyəti danılmazdır və bəllidir ki, kafedramızda bu istiqamətdə kadrların hazırlanması tibbi reabilitasiyanın müxtəlif sahələri üzrə ixtisaslı mütəxəssis qıtlığını aradan qaldıra biləcək”.

Konfransın işinə uğurlar arzulayan TƏBİB sədrinin müşaviri Pərvin Əkbərov uzunmüddətli reabilitasiya xidmətlərinin tətbiqi üçün Nazirlər Kabinetinə təkliflər hazırladıqlarını bildirib: “Bu ilk növbədə Azərbaycan vətəndaşının sağlamlığına yönəlik, fizioterapiya və tibbi reabilitasiya xidmətlərindən daha əlçatan və keyfiyyətli şəkildə yararlanmağa böyük təkan olacaq. Onu da diqqətə çatdırım ki, ölkə üzrə reabilitasiya mərkəzlərinin yenidən qurulmasına başlamışıq. Bu da tələbələrimizin daha keyfiyyətli təhsil almasına, daha müasir xəstəxanalarda işləməsinə imkan verəcək”.

ATU-nun Fizioterapiya və tibbi reabilitasiya kafedrasının müdiri, dosent Paşa Mehdiyev uzun müddət bu sahədə işləyənlərin bu ixtisasın üstünlük və çətinliklərini yaxşı bildiyini dilə gətirib: “Ölkəmizdəki mövcud təbii müalicə amilləri haqda hər birimizin məlumatı olmalıdır. Bunlardan palçıq vulkanları, Naftalan nefti, Naxçıvandakı Duz mağarası, Culfadakı mərgümüş tərkibli sular, Kəlbəcərin İstisuyunu və s. misal çəkmək olar. Bu sahələrin daha da inkişaf etdirilməsi, praktikada effektiv tətbiqi baxımından mütəxəssislərə ehtiyac var. Uzun müddət mütəxəssislərin hazırlanması və ixtisaslaşmış şəkildə xəstələrin müalicəsi ilə Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutu məşğul olub. 2018-ci ildə təmir olunan institutda hazırda xəstələr çox rahatlıqla müalicə ala bilirlər.

Bu gün kadr hazırlığı deyəndə göz önünə ilk gələn ATU-nun Fizioterapiya və tibbi reabilitasiya kafedrasıdır. Məlumat üçün deyim ki, tibbi reabilitasiya ilə bağlı tədris proqram hazırlanıb. Artıq 20-dən çox rezident fizioterapevt və tibbi reabilitasiya üzrə ixtisaslaşıb”.

Kafedra müdiri onu da qeyd edib ki, hazırda fizioterapevtlərin fəaliyyəti ilə bağlı müəyyən məhdudiyyətlər var: “Onlara həm xəstə qəbul etmək, həm diaqnoz qoymaq, həm də müayinələrə göndərə bilmək səlahiyyəti verilməlidir. Belə olarsa, bu sahədəki müəyyən çətinliklər aradan qalxar”.

Sonra panel iclaslara start verilib. Mütəxəssislərin və tələbələrin çıxışları maraqla qarşılanıb.

**Qabil ABDULLAYEV**

# Əməkdaşlarımız beynəlxalq konqresdən qayıdıb

**Azərbaycan Tibb Universitetinin Patoloji Anatomiya kafedrasının əməkdaşları 19-21 aprel tarixlərində İstanbul Acıbadem Universitetində keçirilən X Beynəlxalq Sitopatoloji Konqresində iştirak ediblər.**




Sitopatologiya sahəsində tətbiq olunan yeniliklər və əldə edilən son nailiyyətlərdən danışılan bu konqresdə kafedranın assistenti Camal Musayevin rəhbərliyi ilə təqdim edilən 8 elmi işdən beşi poster, üçü isə sözlü təqdimat kimi qəbul olunub. Kafedranın rezidenti Leyla İsayevanın “Qeyri-müəyyən kateqoriyalı tiroid düyünlərinin risk dəyərləndirməsində TIRADS və Bethesda sistemlərinin qarşılıqlı tətbiqi” mövzusunda elmi işi 2-ci ən yaxşı sözlü təqdimat olaraq dəyərləndirilib.

Dünyanın müxtəlif ölkələrindən nüfuzlu alimlərin qatıldığı konqresdə kafedranın əməkdaşlarından dosent İlahə Kərimova, assistentlər Arzu İbişova, Şəfəq Əliyeva, Mahmud Bağırzadə, Samirə Fərzəliyeva, Günəş Əliyeva, rezident Leyla İsayeva, ümumilikdə isə ölkəmizdən 22 nəfər iştirak edib. Sonda konqresin sədri professor İlkser Akpolat və elmi şura üzvləri Azərbaycan nümayəndə heyətinin aktiv iştirakına görə Camal Musayevə xüsusi təşəkkürlərini bildiriblər.

# ATU-nun əməkdaşı Avstriyada mükafatlandırılıb

**ATU-nun Tədris Terapevtik Klinikasının hematoloq-həkimi, III Daxili xəstəliklər kafedrasının müəllimi Ələmdar Cəfərov bu yaxınlarda Avstriyanın Salzburg şəhərində hematologiya üzrə keçirilən elmi seminarda iştirak edib.**



Ə.Cəfərovun bildirdiyinə görə, hər il gənc həkimlər üçün müxtəlif tədbirlər və konfranslar keçirilir. Bu tədbirlərdən biri də Avstriyada təşkil olunan Salzburq Open Medical İnstitute-nun (OMİ) elmi seminarıdır: “Qeyd edim ki, burada hər həftə müxtəlif ixtisaslar üzrə seminarlar keçilir. Bu tədbirlərə həm gənc həkimlər, həm də ABŞ-dan qonaq professorlar dəvət olunur. Belə seminarlardan biri də bədxassəli hematoloji xəstəliklər mövzusunda aprelin 14-dən 20-dək davam edən tədbir idi. Bu seminarda qonaq qismində Amerika Birləşmiş Ştatlarının ən öndə gedən xərçəng tədqiqat mərkəzindən (Memorial Sloan Kettering Cancer Center - MSKCC) professorlar iştirak edirdi. Yüksək səviyyədə təşkil olunan tədbirdə hematologiyanın müxtəlif sahələrinə aid xəstəliklərin müasir müalicə üsulları, diaqnostikası və patogenezi barədə geniş məlumatlar verildi. MSKCC-dən professorlar Saad Usmani, Paul Hamlin, Pallawi Torkan və Mark Geyerin mühazirələri təqdim olundu”.

ATU-nun əməkdaşı 25 ölkədən 30 iştirakçının qatıldığı belə bir mötəbər tədbirdə ölkəmizi layiqincə təmsil etməkdən qürur duyduğunu söyləyib: “Fəxrlə qeyd etməliyəm ki, konfransda MSKCC tərəfindən ən yaxşı klinik hal təqdimatçısı kimi “Excellent Case Presentation” mükafatına layiq görüldüm. Bu barədə OMİ-nin saytında da məlumat yerləşdirilib. Bundan əlavə, mənə həmin mərkəz tərəfindən “İlin ən yaxşı klinik hal təqdimatçısı” sertifikatı da təqdim olundu”.

**ATU-nun I Daxili xəstəliklər kafedrası və Rezidentura və magistratura şöbəsinin birgə təşkilatçılığı ilə Tədris Terapevtik Klinikada "Turşu-qələvi müvazinətin pozulmaları" mövzusunda rezidentlər, tələbə və gənc həkimlər üçün seminar keçirilib. Tədbirə moderatorluq edən şöbə müdirinin müavini, assistent Namiq Xəlilov mövzunun aktuallığını qeyd edib və sözü ATU-nun I Daxili xəstəliklər kafedrasının assistenti, t.ü.f.d Şəlalə İsmayılovaya verib.**

# Orqanizmin normal fəaliyyəti turşu-qələvi balansından asılıdır



Məruzəçi turşu-qələvi tarazlığının pozulmalarına klinik yanaşma barədə danışıb: “Turşu-qələvi müvazinəti dedikdə, orqanizmin maye mühitinin nisbi sabitliyini təmin edən fiziki-kimyəvi (bufer sistemləri) və fizioloji (tənəffüs, böyrək, həzm) mexanizmlərin məcmusu nəzərdə tutulur. Orqanizmin normal fəaliyyəti turşu-qələvi balansının tənzimlənməsindən asılıdır. Hüceyrədənkənar mayenin pH normal fizioloji diapazonda 7,35 ilə 7,45 arasında müəyyən olunur. Metabolik proseslər zamanı uçucu və uçucu olmayan metabolik turşular əmələ gəlir ki, bu da bufer sistemləri vasitəsilə orqanizmdən xaric edilir. Metabolik asidoz olarsa, anion gap aşkarlanmalıdır. Anion gap rutin qan analizi metodları ilə müəyyənləşdirilə bilən kationlar ilə anionlar arasındakı fərqi ifadə etmək üçün istifadə edilməlidir”.

Ş.İsmayılova bildirib ki, metabolik asidozun vəziyyətini və onun necə diaqnoz və müalicə oluna biləcəyini nəzərdən keçirmək lazımdır. O, respirator asidoz, o cümlədən metabolik və respirator alkalozu kimi turşu-qələvi tarazlığı pozğunluqları haqqında məlumat verib və əlavə edib ki, bütün patoloji vəziyyətlər həm nəzəri tərəfdən, həm də klinik hallar nümunəsindən istifadə edilməklə nəzərdən keçirilib.

Məruzə ətrafında I Daxili xəstəliklər kafedrasının dosenti Aytən Məmmədzadənin fikirləri dinlənildikdən sonra suallar cavablandırılıb.

Seminarda klinikanın direktor müavini Fəridə Hacıyeva, həmçinin I Daxili xəstəliklər kafedrasının əməkdaşları, rezidentlər və tələbələr iştirak ediblər.

# Dağınıq sklerozun konkret yaranma səbəbləri məlum deyil

**ATU-nun Nevrologiya kafedrası ilə Rezidentura və Magistratura şöbəsinin Tədris Terapevtik Klinikada təşkil etdiyi növbəti seminar "Dağınıq skleroz"a həsr edilib. Adıçəkilən şöbənin müdir müavini, assistent Namiq Xəlilov mövzunun aktuallığını diqqətə çatdıraraq vurğulayıb ki, hazırda dünyada çox sayda insanlar, o cümlədən gənclər dağınıq sklerozdan (DS) əziyyət çəkir və bu mövzuda araşdırmalar aparmaq hər birimiz üçün önəm kəsb edir.**



Seminarda məruzə ilə çıxış edən Nevrologiya kafedrasının I kurs rezidenti Fidan Həsənova bildirib ki, dağınıq skleroz dünyada ən çox gənc və yetkin yaşlarda rast gələnən, 20-40 yaş arasında tez-tez diaqnoz qoyulan və kişilərdən iki dəfə çox qadınlarda müşahidə edilən geniş yayılmış xroniki, nevroloji xəstəlikdir.

Məruzəçi deyib ki, bu xəstəliyin bilinən yeganə səbəbi yoxdur. Lakin bir çox genetik və ətraf mühit faktorlarının xəstəliyin inkişafına kömək etdiyi sübut olunub: “Dağınıq sklerozda bədənin öz immun sistemi neyronların aksonlarının üzərini örtən mielin qişaya hücum edərək zədələyir. Sinir sistemini qorumaq və izolyasiya etmək lazımdır ki, beynin bədənin qalan hissəsinə göndərdiyi sinir impulsları tez və səmərəli şəkildə yayılsın. DS mərkəzi sinir sisteminin demielinizasiya (yəni sinirlərimizi izolə edən və qoruyan mielin təbəqəsinin dağılması) ilə gedən autoimmun xəstəliyidir. Adətən 20-50 yaş arası görülə bilər. İnsan yaşa dolduqca bu risk azalır. Qadınlarda kişilərə nisbətən daha çox rast gəlinir”.

Tədbirdə mövzuya dair fikirlərini bölüşən Nevrologiya kafedrasının dosenti Ramin Rzayev vurğulayıb ki, dağınıq skleroz mərkəzi sinir sisteminə təsir edən geniş spektrli simptomlar və eləcə də problemlərə səbəb olan xroniki autoimmun xəstəlikdir.

Nevrologiya kafedrasının müdiri, professor Aytən Məmmədbəyli DS və digər nevroloji xəstəliklərin diaqnostika və müalicəsinin dərindən öyrənilməsi məqsədilə gənc mütəxəssislərdə bu sahəyə marağın yaranması üçün belə tədbirlərin ardıcıl olaraq keçirilməsinin önəmli olduğunu qeyd edib.

# Malyariya hər il 500 milyon insanı xəstələndirir, 1 milyonun həyatına son qoyur

## Ölkəmizdə bu xəstəliyə yerli yoluxma halları olmasa da, mütəmadi əks-epidemik tədbirlər aparılır

**Hər il aprelin 25-i Ümumdünya Malyariya ilə Mübarizə Günü kimi qeyd olunur. Dünya Səhiyyə Təşkilatının 60-cı sessiyasında bu xəstəliklə səmərəli mübarizə aparmaq barədə qərar qəbul edilib. Malyariya ağcaqanadlar vasitəsilə yayılan infeksion xəstəlikdir. Hər il dünyada təxminən 300-500 milyon şəxs malyariyaya yoluxur, bir milyondan çox insan isə həyatını itirir.**

Bəs ölkəmizdə bu istiqamətdə vəziyyət necədir, malyariyaya qarşı mübarizə necə aparılır? Bu barədə suallarımızı Azərbaycan Tibb Universitetinin Epidemiologiya və biostatistika kafedrasının dosenti Elman Vahabov cavablandırır.

Onun bildirdiyinə görə, malyariya hazırda ölkəmizdə ləğv olunma mərhələsindədir: "Çünki yerli yoluxma yoxdur. Ancaq xaricdən gələnlər hesabına tək-tük yoluxma halları qeydə alınır. Yəni yerli yoluxma olmadığına görə, biz elminasiya mərhələsindəyik. Təqribən 2013-cü ildən bu yana bizdə yerli yoluxma halları qeydə alınmır. Amma buna rəğmən arxayınlaşmırıq, bu istiqamətdə hər il əks-epidemik tədbirlər aparılır".

Dosent E.Vahabov ölkəmizdə Aran bölgəsinin malyariya ilə bağlı təhlükəli zona hesab olunduğunu diqqətə çatdırıb. Çünki bu zonada malyariyanın yayılması üçün əlverişli mühit var: "Bu ilk növbədə iqlim şəraiti ilə bağlıdır. Aran zonasında kifayət qədər bataqlıqlar, gölməçələr mövcuddur. Məsələ



burasındadır ki, nə qədər bataqlıqlar, gölməçələr və ağcaqanadlar olsa belə, havanın temperaturu 16 $^0$C-dən yuxarı qalxmırsa, malyariyaya yoluxma mümkün deyil".

E.Vahabov bu tədbirlərin bir neçə qrupa bölündüyünü, bunlardan birincisinin müalicə-profilaktika tədbirləri olduğunu bildirib: "Əhali arasında daim yoxlamalar aparılır, qan analizləri götürülür, xəstəxanaya müraciət edən malyariya şübhəsi olan şəxslər müayinə olunur. Yəni dalaq və qaraciyər böyüməsi, anemiyası, yüksək temperaturu olan və endemik ərazidən gələn şəxslərdən qan analizləri götürülür. Temperaturu yüksək olan istənilən şəxsdən mütləq malyariya ilə bağlı qan götürülür ki, xəstəlik aşkar olunarsa, müalicə edilsin. İkinci qrup isə ağcaqanad əleyhinə tədbirlərdir. Dezinseksiya adlanan bu tədbir hər il dövlət səviyyəsində gigiyena və epidemiologiya mərkəzləri tərəfindən aparılır. Ağcaqanad çox olan binaların zirzəmiləri dərmanlanır. Bundan başqa, göllərin və gölməçələrin dərmanlanması da aparılır ki, buna da delarvasiya deyilir. Əlavə tədbirlərdən biri də bioloji xarakterlidir. Belə ki, qambuziya balığı gölməçələrə buraxılır. Olduqca acgöz və məhsuldar olan bu balıqlar gölməçələrdə ağcaqanadların süfrələrini yeyir. Çox effektli mübarizə formasıdır".

Dosent malyariyanın növləri, inkubasiya dövrü, xəstəliyin əlamətləri barədə də geniş məlumat verib: "Malyariyanın üçgünlük, dördgünlük və digər növləri mövcuddur. Üçgünlük malyariyada hər 3 gündən bir xəstədə malyariya tutmaları baş verir. Əvvəlcə inkubasiya dövrü olur. Yoluxandan sonra bir müddət xəstədə hiss olunmur. İnkubasiya dövrü bitdikdən sonra klinik əlamətlər dövrü başlayır. Tutma necə olur? Əvvəlcə möhkəm titrədir, sonra temperatur 40-41 $^0$C dərəcəyə qalxır. Bir neçə saat titrətmə, bir neçə saat da yüksək hərarət baş verir. Xəstədə çoxlu tərləmə olur, sonra hərarəti qəflətən düşür. Bu proses bir günün içərisində baş verir. İkinci gün heç bir əlamət hiss olunmur. Elə bil insan yenidən dünyaya gəlir, üçüncü gün isə tutma yenidən baş verir".

Dünyada malyariyaya yoluxma hallarının 90 faizinin Afrika qitəsində yerləşən Böyük Səhranın payına düşdüyünü əlavə edən mütəxəssisin sözlərinə görə, həmin ərazilərdə aparılan tədbirlər demək olar ki, heç bir nəticə vermir.

**Q.ABDULLAYEV**

# Dişlərə breket qoyularkən nələrə diqqət olunmalıdır?

## Həkim-ortodont Güney Həsənova: Müalicə zamanı müəyyən qida və içkilərdən uzaq durmaq lazımdır

**Ortodontiya - stomatologiyanın üz-çənə anomaliyalarının diaqnozu və müalicəsi ilə məşğul olan bir sahəsidir. Bu müalicə ortodont tərəfindən həyata keçirilir, dişlərin və çənələrin üçölçülü münasibətini normaya gətirir. Ortodontik müalicə sayəsində istənilən yaşda insanlar gözəl təbəssüm, yaxşılaşdırılmış ağız və diş sağlamlığı, daha yaxşı həyat keyfiyyəti əldə edirlər.**



Bu fikirləri Ortodontiya kafedrasının assistenti, həkim-ortodont Güney Həsənova bildirib. Qeyd edib ki, Beynəlxalq Ortodontiya Assosiasiyası 7 yaşdan yuxarı bütün uşaqların ortodontik müayinədən keçməsini tövsiyə edir. Çünki inkişaf problemləri erkən yaşda müəyyən edilə və profilaktik tədbirlər görülə bilər. Onun sözlərinə görə, əgər anomaliyalar proqnozlaşdırılarsa, erkən müalicə gələcəkdə böyük problemlərin qarşısını almaq üçün çox faydalıdır.

Ortodontiyada ən yaxşı müalicənin inkişaf pozğunluqlarının düzəldilməsi ilə aparılan müalicələr olduğunu söyləyən G.Həsənova, ilk müayinənin hətta 7 yaşdan erkən aparılmasının vacibliyini vurğulayıb. Çünki bu yaşda üz nahiyəsində böyümə və inkişaf üçün hələ böyük potensial var: "Bir çox valideynlər süd dişlərinin düşəcəyini və yerinə daimi dişlərin gələcəyini düşünsələr də, süd dişləmi dövrü uşağın daimi dişləm dövrünə çox böyük təsir göstərir. Hətta süd dişlərinin kontakt səthlərində olan kariyeslər bu dişləri bir-birinə yaxınlaşdıraraq çənə qövsündə yer itkisinə və daimi dişləmdə yer çatışmazlığına səbəb ola bilir. Xüsusilə, süd dişlərinin vaxtından əvvəl çəkilməsində bu itki daha çox olur. Problemlər vaxtında aşkar edildikdə və profilaktik ortodontik müalicə aparıldıqda, gələcəkdə müalicə ehtiyacını xeyli azaltmaq mümkündür".

G.Həsənova onu da diqqətə çatdırıb ki, yetkin insanlarda istənilən yaşda ortodontik müalicə məqbuldur. Amma yetkin insanlarda dişlərin çəkilməsi səbəbindən digər dişlərin yerdəyişməsi baş verə və ya mövcud anomaliyalar ola bilər. Bütün bu problemlər ortodontik müalicə və bəzən stomatologiyanın digər sahələri ilə birlikdə asanlıqla həll edilir: "Fərqli ortodontik müalicə üsullarından biri də breket müalicəsidir. Pasiyentin müayinəsindən sonra ortodont tərəfindən qərar verilən bu müalicə üsulu üçün uyğun breket sistemini seçmək çox vacıbdır. Dişlərin ideal şəkildə düzülməsinə kömək edən bu sistem xəstənin sağlam ağız və diş quruluşunu təmin edir.

Breket müalicəsi uzunmüddətli, səbr və qayğı tələb edən bir prosesdir. Ortodont həkim xəstəyə lazımi məlumatları verməli və müalicə prosesini ətraflı izah etməli, xəstə də həkimin dediklərinə əməl etməlidir. Əks halda, bu prosesin sonunda arzuolunan nəticəni əldə etmək mümkün deyil. Breketləri taxdıqdan sonra pasiyent bir müddət ağrı hiss edə bilər. Ancaq ağrı davam edərsə, həkimə müraciət olunmalıdır. Müalicə zamanı müəyyən qida və içkilərdən uzaq olmaq lazımdır. Bunlara alma, armud, çörəyin sərt tərəfi, cips və qoz-fındıq kimi sərt qidalar daxildir. Karamel şokolad, saqqız kimi yapışqan qidalar, spirtli və qazlı içkilər dişlərdəki breketləri qopara və müalicə zamanı çətin vəziyyət yarada bilər. Ona görə də breketlərin zədələnməsinin qarşısını almaq üçün yumşaq, sulu və asanlıqla parçalanan qidalara üstünlük verilməlidir".

O, breket müalicəsi zamanı ağız gigiyenasına riayət etməyin çətinliyindən də danışaraq qeyd edib ki, breketlər daha çox ərp və qida qalıqlarını saxladığına görə, daha hərtərəfli ağız gigiyenası tələb edir. Ərpin yığılması pasiyentlərin ağız sağlamlığına mənfi təsir göstərə bilər. Məsələn, minanın demineralizasiyası, kariyes və diş əti iltihabının qarşısını almaq üçün hər yeməkdən sonra gündəlik təmizləmə tələb olunur.

Breket müalicəsinin davametmə müddətində bir çox faktorların rolundan söz açan həkim-ortodont xatırladıb ki, diş quruluşu və diş anomaliyalarının növü əsas amillərdir. Seçilən breket sisteminin növü, pasiyentin müalicə dövründəki intizamı, ağız boşluğuna qulluğu, sonradan istifadə edilən retension aparatlar kimi bir çox faktorlar da önəmlidir. Bunlarla yanaşı, breket müalicəsindən sonrakı dövr də müalicə dövrü qədər mühümdür: "Breket müalicəsinin uzunmüddətli olması, pasiyentlərin motivasiyasının azalması səbəbiylə müalicənin tez bitirilməsinə və müalicə sonrası retension aparatların istifadə edilməməsinə səbəb olur. Bu da müalicənin effektivliyini aşağı salır. "Breketdən sonra dişlərim əyildi" şikayəti də bu səbəbdən qaynaqlanır. Müəyyən çətinliklərə baxmayaraq, gözəl bir təbəssümün müsbət tərəflərini yaşamaq heç vaxt gec deyil".

# Faydalı dərslik işıq üzü görüb

**ATU-nun İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının əməkdaşları - professor Musa Ələkbərov və t.ü.f.d, assistent Arzu Mehdiyevanın birgə müəllifliyi ilə ərsəyə gələn "Səhiyyədə insan resurslarının idarə olunması" dərsliyi "Təbib" nəşriyyatında nəfis tərtibatda işıq üzü görüb.**




Kitaba Ə.Əliyev adına ADHTİ-nin Pedaqogika, psixologiya və xarici dil kursu ilə səhiyyənin təşkili və menecmenti kafedrasının professoru, tibb elmləri doktoru ə.e.x. Fazil Ağayev və ATU-nun Epidemiologiya və biostatistika kafedrasının professoru Məhərrəm Niftullayev rəy veriblər.

Doqquz fəsildən ibarət olan dərslik insan resurslarının idarə olunmasının nəzəri və praktik sahələrini əhatə edir. Kitabda insan resurslarının idarə olunmasının mahiyyəti, təkamülü, potensialı, planlaşdırılması, inkişafı, qiymətləndirilməsi, tənzimlənməsi, işçilərin motivasiyası, idarəetmə əməyinin xüsusiyyətləri, liderlik və idarəetmə üslublarının təhlili, seçilməsi metodologiyası əhatəli və eyni zamanda konkret şəkildə şərh edilir. Aydın və oxunaqlı ədəbi dildə yazılan dərslikdə məlumatların daha yaxşı qavranılması məqsədilə zəruri hallarda qrafik təsvirlərdən, şəkillərdən və cədvəllərdən istifadə olunub.

Dövlət standartına uyğun olaraq hazırlanan dərslik ali təhsil müəssisələrinin magistratura səviyyəsində menecment ixtisası (səhiyyə sahəsi) üzrə təhsil alan magistrantlar üçün nəzərdə tutulub. Kitabdan, həmçinin bakalavriat (baza ali tibb təhsili) və rezidentura səviyyəsində təhsil alan tələbələr, səhiyyə və onun təşkili üzrə elmi-tədqiqat işi aparan doktorantlar, dissertantlar, idarəetmə sahəsində fəaliyyət göstərən mütəxəssislər, diplomdansonrakı təhsil müəssisələrində ictimai sağlamlıq və səhiyyənin təşkili üzrə təkmilləşdirmə və ixtisasartırma proqramlarının dinləyiciləri, səhiyyə təşkilatçıları və insan resurslarının idarə olunması ilə maraqlanan digər şəxslər istifadə edə bilər.

Məlumat üçün qeyd edək ki, adıçəkilən dərslik ATU-nun Böyük Elmi Şurasının qərarı əsasında çap edilib. Universitetin tədris proqramına uyğun nəşr olunan bu elmi-praktik monoqrafiya səhiyyə sahəsində menecerlərin hazırlanması üçün vacib olan və bu məqsədlə tərtib edilən mükəmməl bir kitabdır.

## Allah rəhmət eləsin!

Prezidentin fərdi təqaüdçüsü, Əməkdar elm xadimi, REA-nın akademiki Vaqif Şadlinski və İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları Milli Məclisin Səhiyyə komitəsinin sədri, Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının sədri, akademik Əhliman Əmiraslanovun qardaşı

**Vaqif müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Elmi Araşdırmalar Mərkəzinin kollektivi iş yoldaşları Şimid Qasımova qardaşı

**Namiq Qasımovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Elmi Araşdırmalar Mərkəzinin kollektivi iş yoldaşları Vidadi Xəlilova anası

**Abuzəndər Xəlilovanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

İctimai fənlər kafedrasının əməkdaşları dosent Niyazi Namazova dayısı

**Vaqif Əmiraslanovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

I Mamalıq və Ginekologiya kafedrasının əməkdaşları kafedranın assistenti Samirə Məmmədovaya

**əmisinin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

I Mamalıq və Ginekologiya kafedrasının əməkdaşları kafedranın assistenti Ş.Əmiraslanovaya

**Vaqif Əmiraslanovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

## Etibarsız sayılır

Əhmədova Fəridə Müşfiq qızının (118A3b qrup) müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

"Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun "Təbib" nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0008
Sayı 800